Adımız məfkurəmizdir

17 - 23 oktyabr 2023-cü il

Türküstan

www.turkustan.az

Aydın Qasımlı

Filologiya üzrə fəlsəfə doktoru

Bizim yazar

Böyük Türk alimi və filosofu Əbu Reyhan Biruninin fəlsəfi dünyagörüşü

Elmdən fəlsəfəyə , fəlsəfədən dinə qədər müxtəlif bilgiləri öz fikir dünyasında birləşdirə bilən , Şərqin nadir alimlərindən biri də böyük Türk alim filosofu Əbu Reyhan bin Əhməd əl –Birunidir.

Biruni 973-cü ildə Xarəzmdə anadan olmuşdur . İlk təhsilini Xarəzmin o dövrdəki hökmdar ailəsindən olan riyaziyyatçıvə astronom Əbu Nəsr Mənsurdan almışdır . Əbu Nəsr Mənsur ona Evklid həndəsəsi və Batlamyus astronomiyasınıöyrətmişdi . Biruni elmi yaradıcılığa 17 yaşında başlamışdı .

995-ci ildə Urgənc əmiri Xarəzmşahı edam etdirib özünü " Xarəzmşah " elan etdikdən sonra keçmiş Xarəzmşahın qohumu Mənsur ibn Ərraq sevimli tələbəsi Əbu Reyhan Biruni ilə birlikdə Xarəzmşahın paytaxtı Kət şəhərini tərk edərək Reyə gəlmiş , burada 2 ilə yaxın qalaraq elmi fəaliyyətini davam etdirdikdən sonra Xarəzmə qayıtmışdı .

Biruni 998-ci ildə Əmir Qabusun dəvəti ilə Qurqana gəlmiş , burada 3 ilə yaxın çalışdıqdan sonra 1000-ci ildə yenidən Xarəzmə -Urgəncə qayıtmışdı. O ,burada Xarəzm dövlətinin siyasi işlərində iştirak etmiş və dövlət aparatında sayılan bir mövqe qazanmışdı.1010-cu ildən Xarəzmşahın siyasi məsləhətçisi olan Biruni Xarəzmi xarici müdaxilələrdən qorumaq üçün diplomatik fəaliyyət göstərmişdi .

Yüksək təhsil görmüş , öz ana dili Türkcə ilə yanaşı ərəb , fars və s . dilləri mükəmməl bilən , dövlətin prinsiplərini hər şeydən üstün tutan , öz dövründə dövlətçilik və diplomatiyada xüsusi istedada sahib olan ,ağıllı , siyasətcil , məsələləri dəqiq qiymətləndirməkdə mahir bir hökmdar olan Mahmud Qəznəvi Şərqin böyük alim , şair və mütəfəkkirlərini öz sarayına yığmağa çalışmışdı .Bu məqsədlə o , hələ Xorasan , Buxara və Xarəzmi öz siyasi hakimiyyəti altına almamışdan əvvəl Xarəzmşaha məktub yazaraq orada yaşayan alim , hüquqçünas və s . Qəznəli sarayına göndərməsini tələb etmiş , bununla da Biruni öz müəllimi Mənsur ibn Ərraq ilə bərabər 1017 –ci ildə Qəznəvi sarayına göndərilmişdi .

Xarəzmdə dövlət işləri ilə məşğul olan Biruni Qəznəli sarayına gəldikdən sonra yalnız elmlə məşğul olmuşdu . Əsrin böyük hökmdarlarından olan Mahmud Qəznəli Hindistan yürüşlərində Birunini də özü ilə bərabər Hindistana aparmış , Biruni 1017 -1030 –cu illərdə Hindistanda yaşamış və burada məşhur " Kitab-üt –Təhqiq Mal il –Hindi " əsərini yazmışdır.

Geniş ensiklopedik biliyə sahib olan Biruni insan üçün doğruluq və düzgünlüyü birinci şərt olaraq qəbul etmiş və göstərmişdi ki : " Elə səbəblər vardır ki , onlar insanı həqiqəti görməkdə kor edir . İnsanda kök salmış yaramaz vərdişlər , ehtiras , rəqabət , şəhvət düşgünlüyü , hakimiyyət uğrunda mübarizə və s . bu qəbildəndir .

Biruni müxtəlif xalqlar və topluluqlar arasındakı yanlış anlamları düzəldib onları bir –birinə yaxınlaşdırmağa çalışmış , fərqli irq , din və mədəniyyətlər arasında həqiqi əlaqələrin qurulmasında açar rolu oynamışdır .

Yunan , Hind və İslam dini , elmi və fəlsəfəsi haqqında mükəmməl biliyə sahib olan Biruni fərqli dünyagörüş və mədəniyyətlər arasında yararlı qaşılaşdırmalar aparmışdır ki, onun bu ictimai fəaliyyətindən buğun belə bir çox ictimai fikir və mədəniyyət tarixçiləri yararlanmaqdadır . Onun "Əl –asaril-bakiyə " və " Kitab-üt –Təhqiq Mal il-Hindi " adlı əsərlərində irəli sürdüyü fikir və mülahizələri buğun belə heyrət doğurur . O, " Əl-asarül –bakiyə " əsərinin " Ön söz "ündə göstərir ki , insanın yaxşı bir tədqiqatçı ola bilməsi üçün hər növ mənfi hökmlərdən , təkəbbürlü tutumlardan və bir çox insanı həqiqəti araşdırmaqdan kənarlaşdıran bütün öldürücü ünsürlərdən uzaq olması gərəkdir . Həqiqəti araşdıran bir insanla bir ənənəyə kor-koranə uyan insan arasında əlbəttə ki , böyük fərq vardır (Seç- mələr bizimdir –A. M. Bax : Mehmet Aydın , Türklerin felsefe kültürüne katkıları , Türk dünyası el kitabı , II cilt ,II baskı , Ankara 1992 , səh .478) .

Biruni elmə , bilgiyə yüksək qiymət vermiş ,bilginin və elmin insanları yanıltmaq və onlara zərər vermək məqsədilə işlədilməsini lənətləmiş , xalqın savadsızlığını və cəhalətini istismar edən bilgiyə və elm sahibi alimlərə qarşı çıxaraq göstərmişdi ki , alim öz əleyhinə olsa da həqiqəti aramaqdan geri durmamalı , həqiqət hansı mənbədən gəlirsə gəlsin onu qəbul etməlidir .Alimə görə,elm və bilgi insanın yüksəlişini müəyyən- ləşdirən bir vasitə olduğundan ona sahib olmaq başqa fəaliyyət- lərdən əldə edilən həzzlərdən fərqli olaraq özbaşına həzzverici- dir . Elmin sahələri , qolları çoxdur . Xalqın elmlə yaxından maraqlanması sadəcə elmin deyil , elm adamlarının da dəyərləndirdiyi dönəmlərdə bu say daha da artar . Bunu etmək hər şeydən əvvəl xalqı idarə edənlərin vəzifəsidir .

Biruni filosof olmaqdan daha çox elm adamı kimi tanınmisdir . Lakin fəlsəfəni rasional və nizamlı bir araşdırma olaraq düşündüyümüz təqdirdə Birunini də bir filosof adlandırmaq olar. Tədqiqatçılar onun fəlsəfi mahiyyətdə 3 əsər qələmə aldığını , lakin o əsərlərin günümüzə gəlib çatmadığını qeyd etmişlər .

Biruni aləmin əzəliliyi və ona bənzər mühüm məsələlər - də " İslam Aristotelçiliyi "ni tənqid etmiş , aləmin yoxdan yara- dıldığına inanmış və bunun əksini iddia etmənin İslam dininin bəzi təmel prinsiplərini inkar etməyə bərabər olduğunu qeyd et- misdir (Seçmələr bizimdir –A .M. Bax : Mehmet Aydın ,Ahlak ve siyaset felsefesi , Türk dünyası el kitabı ,II cilt , II baskı , Ankara 1992 , səh .480) .

Biruni Qurani –Kərimdə ifadəsini tapan araşdırma ruhunu görəbilən bilikli bir alimdir . O , öz obyektiv görüşləri ilə Quranın tələbləri arasında həqiqi bir əlaqənin olduğunu görmüş , Hindistana həsr etdiyi " Kitab –üt –Təhqiq Mal –il –Hindi " əsərində insanın həqiqəti söyləməsinə əngəl olan cəhalət, nifrət , sevgi və s . kimi psixoloji əlamətləri təhlil edərək insanın özünü yanlış qənaətlərə sürükləməkdən necə qorumağa çalışdığını anlatmış və Allahın lütfü sayəsində bu motivlərdən heç birinin öz çalışmasına təsir etmədiyini qeyd etmişdi .

Biruniyə görə , daima gerçəyə , həqiqətə sarılan , yalanlardan şəkinən və beləliklə , yalançıların nəzərində belə etibara sahib olan insan tərifə layiqdir .

Biruniyə görə , İslam dini hər cür dargörüşlülükdən uzaq olan bir mədəniyyət şüurunu varlıq meydanına çıxarmışdır . O , Quran tərəfindən təlqin edilən rasional və təcrübi ruhun tam anlamı ilə fərqində olduğu kimi , digər bəzi dinlərin müqəddəs kitablarının səbəb olduğu böyük çətinliklərin də fərqində olmuşdur . Öz dövründə bəzi Hind alimlərinin mövcud din-elm mübarizəsinin qarşısını almaq üçün elmi nəticələri yanlış şərh etdiklərini göstərən Biruni onları tənqid etmişdir .

Biruninin İslam dininə və mədəniyyətinə inamı tamdır. O , göstərir ki , Quranın ayələri Yerin , Göyün və bütün varlıqların şəkilləri və digər bəzi xüsuslarda zorlama bir şərh etməyi gərəkdirəcək bir şeyi əhatə etməkdədir və onlar da dinin digər hökmləri ilə uyum içində olub ,eyni zamanda açıq-aydındır . Ümumiyyətlə , Quran davamlı olaraq Kainatın yaradılış tarixi və s . kimi mübahisə mövzusu olan məsələlərə yer verməmişdir. Alim əsərlərində təkrar-təkrar : " Rəbbimiz bütün bunları boşuna yaratmadı " ayəsini misal gətirərək göstərir ki , bu yüksək ayə , mənim ayrıntılı olaraq açıqladığım şeyi bir bütün olaraq əhatə etməkdədir (Seçmələr bizimdir –A . M .Bax : Mehmet Aydın , Ahlak ve siyaset felsefesi , Türk dünyası el kitabı ,II cilt,II baskı, Ankara 1992 , səh. 479-480) .

Əxlaqi və siyasi düşüncələrində Biruni nəzəri düşüncələrdən daha çox praktik məsələlərə önəm vermişdir . O ,əxlaq mövzusunda əsasən " Mürüvvət " və " Uhuvvət " kimi iki təmel fəzilət üzərində durmuşdu . Mürüvvət fərdin əxlaqi davranışları- nı , Uhuvvət isə Cəmiyyət əxlaqını əks etdirir . Mürüvvət "igid- liyə " , Uhuvvət isə " qardaşlığa " səsləyir .Mütəfəkkir göstərir Aünsürlərdən meydana gəldiyini bilmək lazımdır .

Biruninin " Uhuvvət " anlayışı onu "Hind Kast Sistemi"ni tədqiq etməyə yönəltmişdi . Alim göstərir ki :"Hind- lilər arasında Kast kimi qurumlar xeyli çoxdur . Bütün insanları bərabər sayan biz müsəlmanların görüşü isə tam mənası ilə onlardan fərqlənir . Hindlilər ilə Müsəlmanlar arasında qarşılıqlı anlaşmanın qarşısını alan ən böyük əngəl budur " (İqtibas Mehmet Aydının "Ahlak ve siyaset felsefesi " adlı yazısından götürülmüşdür – A . M . Bax : Türk dünyası el kitabı ,II cilt ,II baskı , səh . 480-481) .



Biruni Qurani –Kərimdə ifadəsini tapan araşdırma ruhunu görəbilən bilikli bir alimdir . O , öz obyektiv görüşləri ilə Quranın tələbləri arasında həqiqi bir əlaqənin olduğunu görmüş , Hindistana həsr etdiyi " Kitab –üt –Təhqiq Mal –il –Hindi " əsərində insanın həqiqəti söyləməsinə əngəl olan cəhalət, nifrət , sevgi və s . kimi psixoloji əlamətləri təhlil edərək insanın özünü yanlış qənaətlərə sürükləməkdən necə qorumağa çalışdığını anlatmış və Allahın lütfü sayəsində bu motivlərdən heç birinin öz çalışmasına təsir etmədiyini qeyd etmişdi...

(ardı gələn sayımızda)

Oxu, oxut, abunə ol!